# Bitdi Gözləmələr

**Bəxtiyar Vahabzadə**

*Oğlum İsfəndiyara*

Bitib alışmağım, bitib yanmağım
Yumağa döndəri məni bu gərdiş
Həyat – bir arzuya qanadlanmağım,
Həyat – Nəyi isə gözləməyimmiş.

Günbəgün çoxalır amanlar, ahlar
İndi dünya özgə, artıq mən özgə
Ümidsiz açılır indi sabahlar
Heç nə gözləmirəm ölümdən özgə.

Allahın verdiyi bu qismət nəymiş?
Gəldim getmək üçün… Bu qədər ancaq.
Vaxtın sürətiymiş, hərəkətiymiş
Taledən nə isə gözləmək, ummaq.
Bitdi gözləmələr, dayan ey qatar
Uzun yolculuğun nə mənası var?

Bir oddan qurtarıb düşdüm min oda.
Mənim gözlədiyim istiqlalım da
Torpaq itirməyin dərdilə gəldi.
Dözüm uzandıqca ömür gödəldi
Azadlıq qazanıb torpaq itirdik
Birini alınca birini verdik.

Başqa gözləmələr bundan beş betər
Arzuya yetincə marağın itər
Bir şeyi anladım həyatdan, oğul
İtirə–itirə getdiyim bu yol,
Vaxtın axarında tək bircə anmış,
Bizə pay verilən ömür yalanmış.
İndi bu ömür də bir anıt oldu
Bir fındıq qazandım, içi fit oldu.

Gözləmək naminə yelə vermişəm
Ömrümü, günümü yanıb şam kimi.
Bir vaxt ayıldım ki, mən itirmişəm
Yaşamaq eşqimi, həyat eşqimi.

Yorğun ürəyimin indi bir gilə
Bu vecsiz dünyadan təmənnası yox.
Bitib haqq–hesabım bu dünya ilə
Artıq yaşamağın bir mənası yox.

İçimdə boğuram öz fəryadımı
Dəyişib yerini günəşim, ayım.
Allahım, özün de çox olmadımı
Mənə bəxş etdiyin bu ömür payım?
Bitdi gözləmələr… Dayan ey qatar
Uzun yoculuğun nə mənası var?

9 oktyabr, 2002.

---

Veb direktor: Betti Bleyer
Mətni yığdı: Nərgiz Abadi
Veb üçün hazırladı: Ülviyyə Məmmədova
AZERİ.orga qoyuldu: yanvar, 2004